# TÜRKİYƏ VƏ AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLİR

## *Elm və təhsil naziri Türkiyədə səfərdə olub*










### Nazir Türkiyədə təhsil alan azərbaycanlı doktorantlarla görüşüb

Elm və təhsil naziri Emin Əmrullayev Türkiyəyə səfəri çərçivəsində qardaş ölkədə doktorantura təhsili alan azərbaycanlı tələbələrlə görüşüb.

İstanbul Texniki Universitetində baş tutan görüşdə Emin Əmrullayev ölkəmizdə ali təhsil sistemində son ildə baş vermiş dəyişikliklər, xüsusilə Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universitetinin yaradılması, xaricdə təhsil proqramının müddətinin 2028-ci ilədək uzadılması və digər məsələlər barədə məlumat verib. Nazir bildirib ki, indi xaricdə doktorantura təhsili almaq istəyən gənclərimiz üçün yaxşı fürsətlər yaranıb.

Görüş çərçivəsində Emin Əmrullayev tələbələri maraqlandıran sualları cavablandırıb, doktorant tələbələrin akademik və elmi fəaliyyəti ilə bağlı imkanlar müzakirə edilib.

Nazir gənclərimizi təhsillərini bitirdikdən sonra ölkəmizin ali təhsil mühitinə töhfə verməyə çağırıb.





### Emin Əmrullayev Türkiyənin bir neçə ali təhsil müəssisəsində olub

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin bir neçə aparıcı ali təhsil müəssisəsini ziyarət edib.

27-28 fevral tarixlərində nümayəndə heyəti Türkiyənin İstanbul Texniki Universitetinin rektoru Hasan Mandal və Koç Universitetinin rektoru Metin Sitti ilə görüşüb. Görüş çərçivəsində tərəflər universitetlərarası əməkdaşlıq perspektivlərini müzakirə edib. Həmçinin sözügedən universitetlərin maddi-texniki bazası və laboratoriyaları ilə tanışlıq olub.

Martın 1-də isə elm və təhsil naziri Emin Əmrullayev Türkiyənin Gəbzə Texniki Universitetinin rektoru Hacı Ali Mantar və Yıldız Texniki Universitetinin rektoru Eyüp Debik ilə görüşüb. Tərəflər Türkiyə və Azərbaycan ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanlarını müzakirə edib.

Daha sonra nazir Emin Əmrullayev bu universitetlərin tədris şəraiti, maddi-texniki bazaları və laboratoriyaları ilə yaxından tanış olub.







